Azərbaycan Arxeologiyası Cild 22 № 2 2019. 56-65
Xəzər Universiteti Nəşriyyatı 2019 DOI: 10.5782\ 2218-0346.2019.22.2.56

# Azərbaycanın keramika istehsalında izlənilən qarşılıqlı mədəni təsirlər (e.ə. I minilliyin ortaları)

**Laçın Mustafayev**
AMEA Milli Azərbaycan Tarixi Muzeyi
Qafqaz8310@rambler.ru

**Açar sözlər:** Antik dünya mədəniyyəti, keramika, Əhəməni tipli saxsı cam, mədəni təsir

Azərbaycan qədim tarixə və zəngin maddi mədəniyyətə malik bir ölkədir. Bu zəngin mədəniyyəti ölkəmizin tarixi abidələri və arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş maddi mədəniyyət nümunələri sübut edir. Arxeoloji tapıntılar maddi mədəniyyətimizin zənginləşməsində müxtəlif mədəniyyətlərin yer aldığı multikultural dəyərlərin iştirakını aydın surətdə biruzə verir. Bu coğrafi ərazidə yaşayan insanlar daim müxtəlif ölkələrlə, fərqli sivilizasiyalarla və köçəri xalqlarla mədəni, siyasi, hərbi, iqtisadi əlaqələr qurmuş, bu münasibətlər də öz növbəsində maddi və mənəvi mədəniyyətimizdə bu və ya digər dərəcədə təzahür etmişdir. Azərbaycan e.ə. I minilliyin ilk rübündən təsərrüfat həyatının, siyasi münasibətlərin və mənəvi mədəniyyətin yüksəlişi ilə xarakterizə edilən inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdən etibarən maddi mədəniyyətimizdə müəyyən dəyişikliklər baş vermiş, xüsusilə keramika istehsalında yeni formalar meydana gəlmişdir. Azərbaycanın Son Tunc-Erkən Dəmir dövrü keramikasının Gürcüstan, Ermənistan, Dağıstan və İran ərazisindən əldə edilən, o cümlədən Ön və Mərkəzi Asiyanın bir sıra abidələrindən tapılan analoji materiallarla oxşarlıq təşkil etməsi bu qarşılıqlı əlaqələrin bariz nümunəsidir (13, s. 85-113). Xocalı-Gədəbəy keramikasının ornament və təsvirlərinin İran, Gürcüstan, Ermənistan, Mərkəzi Asiya, Uzaq Şərq, Cənubi Sibir və Dağlıq Altay ərazisindəki abidələrdən aşkar edilən saxsı nümunələrinin üzərindəki təsvirlərlə oxşarlıq təşkil etməsi, müxtəlif xalqların və mədəniyyətlərin qarşılıqlı münasibətlərini və biri-birinə təsirini göstərir (8, s. 94, 126, 137-140, 144).

Azərbaycanın dünya xalqları ilə mədəni əlaqələri e. ə. VI əsrdən etibarən daha da genişlənmişdi. Buna səbəb e.ə. 550-ci ildə yaranan Əhəmənilər dövləti və Azərbaycanın bu dövlətin tərkibinə daxil edilməsi idi. Azərbaycanın İranla olan qədim və sıx əlaqələri dulusçuluğun inkişafına və qarşılıqlı təsirin yaranmasına səbəb olmuşdu. Əhəmənilər dövləti qısa zaman ərzində öz sərhədlərini genişləndirərək nəhəng imperiyaya çevrilir. Ksenefontun əsərləri Əhəmənilərə aid ən mükəmməl və dolğun mənbələrdən hesab edilir (9; 10, səh. 7-243). Lakin Əhəmənilər dövləti haqqında ilk yazılara antik

yunan tarixçisi Herodotun "Tarix" kitabında rast gəlinir (7). Əsər Əhəmənilərin tərkibində olan ərazilərin tarixi ilə başlayıb e.ə. 479-cu ildə baş vermiş Plateya döyüşünün təsviri ilə bitir (7; 14, səh. 20-23). Əsərdə Əhəmənilər imperiyasına aid dəyərli məlumatlar yer alır. O cümlədən imperiyanın ərazisi dəqiqliklə göstərilir. Əhəmənilər imperiyasının sərhədləri qərbdə Misir daxil olmaqla Şimali-Şərqi Afrikadan şərqdə Hind çayı vadisinə qədər, cənubda İran körfəzi, Hind okeanı, şimalda Qafqaz dağlarınadək uzanırdı. Kaspi tayfası barəsində məlumat verən müəllif bu tayfanın 20 satraplığa bölünən imperiyanın XI satraplığında yerləşməsini və digər tayfalar kimi onların da fars hakimiyyətinə bac verməsini göstərir (7, səh. 208-209).

Yaranan və inkişaf edən iqtisadi-mədəni əlaqələr tədricən maddi mədəniyyətimizə sirayət edir, eyni zamanda yerli əhalinin mənəvi mədəniyyətinin, daxili aləminin zənginləşməsində mühüm rol oynayırdı. Bu yazılı və tarixi faktları arxeoloji abidə və tapıntılar da təsdiq edir. Şəmkir rayonunun Qaracəmirli kəndində aparılan son illərin arxeoloji qazıntıları göstərir ki, Azərbaycan respublikasının ərazisi həqiqətən də Əhəmənilər imperiyasının (e.ə. 550-330-cu illər) tərkibində olmuş və ölkəmizin qədim sakinləri bu müddət ərzində dünyada baş verən siyasi, mədəni və hərbi proseslərə məhz Əhəmənilər vasitəsilə qoşulmuşdur (5, səh. 110-121). Eyni zamanda Əhəmənilərin tərkibində olduğu müddətdə qədim İran-Əhəməni mədəniyyəti Azərbaycanın maddi mədəniyyətinin müxtəlif sahələrinə də müəyyən qədər təsir etmişdir. Bu təsiri memarlıq və sənətkarlığın müxtəlif sahələrində izləmək mümkündür.

Azərbaycan ərazisində saxsı qabların istehsalı uzun əsrlərin təcrübəsinə söykənir. Ən qədim dövrlərdən bəri xalqımız saxsı qabların istehsalı ilə məşğul olmuş və bu ənənəni indiyədək davam etdirməkdədir (4). Müxtəlif xalqları bir idarəçilik altında birləşdirən Əhəmənilər imperiyasının daxilində mədəniyyətimiz ünsiyyətdə olduğu digər mədəniyyətlərin təsiri ilə həm zənginləşmiş, həm də qarşılıqlı olaraq müxtəlif səpkili əlaqələrin yaranıb inkişaf etməsində yaxından iştirak etmişdir. Maraqlı faktlardan biri budur ki, maddi mədəniyyətimizin bəzi kənar elementləri, yad ünsürləri qəbul edərək mənimsəməsi keramika istehsalında daha tez nəzərə çarpır. İqtisadi-mədəni münasibətlər nəticəsində Azərbaycanın keramika istehsalında Əhəməni tipli camlar meydana gəlir. Bu tip camların saxsıdan olan nümunələri Əhəmənilər dövrü abidələri ilə yanaşı antik dövrün abidələrindən də məlumdur. Bu tip qabların ən mükəmməl və zərif sənətkarlıq işləri metaldan olan torevtika (bədii metalişləmə) nümunələridir. Lakin metaldan olan Əhəməni tipli camlara nadir hallarda təsadüf edilir. Buna səbəb metal məmulatının çətin ərsəyə gəlməsi və dəyərinin yüksək olmasıdır. Çox güman ki, metal camlar (qızıl, gümüş, tunc, mis) yüksək təbəqəyə məxsus zümrənin məişətində istifadə olunmuşdur. Metaldan olan bu tip qiymətli qablar yerli sənətkarlar tərəfindən

xüsusi sifarişlə hazırlanırdı. Amma antik dövrə aid belə nümunələrin böyük qismi mədəni münasibətlər, ya da ticarət yolu ilə Azərbaycana gətirilmişdir. Belə nadir nümunələr yuxarı təbəqəyə məxsus insanlara digər ölkələrin imtiyazlı və ya varlı şəxsləri tərəfindən hədiyyə qismində də verilə bilərdi. Xüsusi sifariş, hədiyyə, o cümlədən ticarət yolu ilə əldə olunmasından asılı olmayaraq, hər bir halda qiymətli metaldan ibarət qablar (qızıl, gümüş) varlı təbəqənin insanlarına məxsus olmuşdur. Tunc və misdən olan qabların istifadəsi bir qədər aşağı təbəqənin əhalisinə də məxsus ola bilərdi. Torevtika nümunələrinin üzərində olan təsvirlərin aydın görüntüsü və tamlığı onlardan az istifadə olunduğunu göstərir. Belə qablar heç şübhəsiz bəzək – dekorativ əşya rolunu oynamışdır.

E.ə. I minilliyin ortalarına aid Əhəməni tipli gümüş cam nümunəsi 30-cu illərdə Dolanlar adlı abidədən əldə edilmişdi (11, səh. 68). Hal-hazırda bu tapıntı Milli Azərbaycan Tarixi Muzeyində qorunur (İnv 1187). Məlumat üçün qeyd edək ki, Əhəmənilər imperiyasının inzibati idarəçiliyi ilə əlaqədar mövcud olmuş, e.ə. V-IV əsrlərə aid tikili qalıqları Azərbaycanın məhz şimali-qərb hissəsində müşahidə edilməkdədir. Əhəmənilər dövrünə (e.ə VI-IV əsrlər) və memarlıq üslubuna aid ilk tikili qalıqları Sarıtəpə abidəsindən məlumdur (12, səh. 162-164). Sonrakı illərin tədqiqatları (2006-2017-ci illər) bu dövrün geniş və fundamental tikililərinin aşkar edilməsi ilə yadda qalan olmuşdur. Tədqiqatlar zamanı aşkar edilən tikili qalıqlarında Əhəməni memarlığının xarakterik xüsusiyyətləri və tikinti texnikası müəyyən edilmişdir. Şəmkir rayonunun Qaracəmirli kəndi ətrafındakı tapıntılar e.ə. VI əsrin sonlarından etibarən, bir qədər də dəqiq desək e.ə. V-IV əsrlərdə Azərbaycan ərazisinin Əhəmənilər imperiyasının inzibati idarəçiliyinə daxil olması faktını təsdiq edir. Dolanlardan əldə edilən maddi mədəniyyət nümunələri, Sarıtəpə və Qaracəmirlidən aşkar edilən artefaktlar və tikili qalıqları bu dövrdə Əhəmənilərin Azərbaycanla siyasi münasibətləri ilə paralel mədəni münasibətlərin qurulmasında da maraqlı olduğunu göstərir. Dolanlardan tapılan camın yerli sənətkarlar tərəfindən hazırlanmasını demək bir qədər çətindir. Bu dövrə aid metal nümunələrə nadir hallarda təsadüf edilməsinə baxmayaraq, eyni formada gildən hazırlanmış Əhəməni tipli camlar arxeoloji qazıntılardan kifayət qədər əldə edilmişdir. Belə tapıntılar erkən antik dövrün yaşayış və qəbir abidələri üçün də xarakterikdir. Belə ki, dulusçuluq sahəsinə olan qarşılıqlı təsir Əhəmənilər dövründən başlansa da, bunu antik mərhələdə də müşahidə etmək mümkündür.

2013-cü ildə Qəbələ rayonunun Çuxur-Qəbələ kəndinin ərazisində yerləşən Antik şəhər yerinin şimali-qərb tərəfində təsərrüfat işləri görülərkən ağır texnikanın torpağa müdaxiləsi zamanı (ekskavator balıq zavodunun tikintisi üçün su kanalı qazarkən) erkən antik dövrə aid bir neçə qəbir dağıdılmışdır (1, səh. 31-35, 51; 2, səh. 407-409), (şək.1). Dağıdılmış qəbirlərdən

aşkar edilən materiallar erkən antik dövr – e.ə. IV-III əsrlər üçün xarakterik olan müxtəlif çeşidli keramika məmulatı, dəmir bıçaq, döyüş yabası, dən daşı və tunc bəzək əşyasından ibarətdir. Ərazidə iki qəbirin dağıdıldığı müəyyən edilsə də, ətrafa səpələnən tapıntılar burada iki və daha artıq qəbrin olduğunu göstərir. Bir qəbir nisbətən salamat qalmışdır. Materialların bir qismi zədələnsə də, böyük qismi torpaqdan təmizlənərək götürülmüşdür. Bu qəbirdən dəmir döyüş yabası s/q 1708 (şək. 2), dəmir bıçaq s/q 1709 (şək. 3), qırmızı gildən bişirilmiş orta ölçülü təsərrüfat küpü, iri ölçülü səhəng tipli bir qulplu qab fraqmenti s/q 1710, bozumtul açıq-sarı rəngli, enli ağızlı qabın fraqmenti s/q 1711, üzəri anqoblu və gövdəsinin yuxarı hissəsində üfüqi paralel zolaqlarla naxışlanan, e.ə. V-IV əsrlərə aid Qərbi Azərbaycan və Gürcüstan ərazisi üçün səciyyəvi olan iki qulplu saxsı küpə s/q 1707 (şək. 4) əldə edilmişdir (1, səh. 31-35, 52-55, 142-158). Ətrafa səpələnmiş arxeoloji materialların hansı qəbirə aid olduğunu müəyyən etmək bir qədər mübahisə doğurduğu üçün onlar birinci qəbirdən tapılan artefaktların sırasına salınmamışdır. Birinci qəbirdəki maraqlı tapıntılardan biri də Əhəməni mədəniyyəti üçün xarakterik olan saxsı camdır s/q 1706 (şək. 5), (1, səh. 33, 52, 144; 2, səh. 408-409). Cam orta ölçülü, açıq qırmızı rəngdə olub, yaxşı bişirilmişdir. Gövdəsinin və ağız hissəsinin kiçik sınığı qabın tərkibinin ilkin müşahidəsi üçün kifayət edir. Nazik divarlı qab narın qum qarışıqlı qırmızımtıl gildən yüksək keyfiyyətlə hazırlanmışdır. Camın görünüşü olduqca cəlbedicidir. Oturacağının mərkəzi hissəsi nisbətən qabarıqdır. İstifadə zamanı orta barmağı qabın oturacağına yerləşdirmək olur. Belə olan tərzdə camı əldə rahat saxlamaq mümkündür.

Bu tip qablar Azərbaycanın antik dövrə aid arxeoloji abidələrindən - Mingəçevir, Qəbələ, Ağsu, Şəmkir və s. əldə edilmişdir. Bu fakt göstərir ki, bu tip qablar Azərbaycan ərazisində kifayət qədər geniş yayılmış və antik dövrdə dulusçular tərəfindən hazırlanmışdır.

Əhəmənilər dövrünə aid camlar eyni dövrə aid digər saxsı nümunələrindən yuxarıda qeyd etdiyimiz xüsusi cizgiləri ilə seçilir. İlk öncə qeyd edək ki, bu qablar dulus çarxında hazırlanmırdı. Təəccüblü olsa da, e.ə. VI-V əsrdən başlayaraq, ellinizm dövrü də daxil olmaqla, erkən orta əsrlərədək Azərbaycanın bir çox qədim şəhər və yaşayış yerlərində istehsal edilən saxsı məmulatı dulus çarxının iştirakı olmadan hazırlanırdı. Bu faktı arxeoloji qazıntılar zamanı yaşayış yeri və qəbir abidələrindən tapılan antik dövrə aid saxsı nümunələri təsdiqləyir. Əl ilə hazırlanan saxsı qabların özündən əvvəlki yaxud sonrakı dövrə aid nümunələrdən nə xarici görünüş, nə də keyfiyyət baxımından geri qalmadığını, əksinə daha mükəmməl olduğunu qeyd etmək lazımdır. Bişirilmə keyfiyyəti də əl ilə hazırlanan qablarda kifayət qədər yüksəkdir. Eyni zamanda üzərinə çəkilən anqob bu qablara xüsusi görkəm və zəriflik verir.

Əhəməni tipli saxsı camlar maddi mədəniyyətimizə daxil olduqları ilk dövrdən, təxminən e.ə. V əsrdən etibarən forma və naxışlanmasına görə həmin dövrə aid gümüş camlara oxşar şəkildə istehsal olunmuşrlar. Lakin bir qədər sonrakı dövrlərdə bu ənənə pozulmuşdur. Heç şübhəsiz yerli sənətkarların özünəməxsus yaradıcı müdaxiləsi sayəsində Əhəməni tipli camların xarici görünüşündə bir qədər dəyişkənlik meydana gəlmişdi. Zaman keçdikcə yerli dulusçular öz əlavələrini, o cümlədən ixtisarları usta məharəti ilə bu qablara tətbiq etmişlər. Bəzən sərt və diqqətsiz müdaxilə qabların kobudlaşmasına gətirib çıxarırdı. Misal üçün ilk nümunələrə nəzər saldıqda görərik ki, onların oturacağında içəriyə doğru batıq olan oyuq bir neçə əsr sonrakı qablarda təkrarlanmır. Gövdənin mərkəzindəki çökək, kəmər şəkilli hissə də tədricən bütöv gövdə ilə əvəzlənir. Gövdənin yuxarı kənarının (ağzının kənarı) sərt sonluğu da qablarda olan dəyişkənliyin göstəricisidir. Bəzi nümunələrdə gövdənin yuxarı hissəsinə üfüqi kiçik qulp əlavə edilmişdir. Qəbələ, İsmayıllı, Ağsu, Xızı, Mingəçevirdən tapılan son antik dövrə aid camlar belə nümunələrdəndir. Dövründən və xarici quruluşundan asılı olmasına baxmayaraq, yürüdülən fikirlərə rəğmən bu tip qabların böyük qismi yerli istehsalın məhsulu olub, lakin Əhəməni mədəniyyətinin maddi mədəniyyətimizə olan təsiri ilə yaranmışdır.

Antik dövrün keramika məmulatı haqqında xeyli sayda elmi ədəbiyyat və tədqiqat işləri vardır. Azərbaycanda tapılan Əhəməni tipli camların digər mədəniyyətlərdə rast gəlinən analoqları ilə müqayisəsini aparsaq maraqlı faktlar əldə etmiş olarıq. Əhəməni mədəniyyəti antik dövrə təsadüf etdiyindən bu dövrə aid ayrı-ayrı yaşayış yerlərinin keramikası həm istehsal və forma, həm də yayılma və inkişaf baxımından oxşar paralellərə malikdir.

Antik dövrdə yunanlar məişət və dini ayinlərin icrasında nazik divarlı, ensiz cam-piyalədən (φιάλη) istifadə etmişlər. Camın əlverişli istifadə imkanları onu hətta yürüş və səyahət zamanı da daşınmasına imkan verirdi. Bu qablar içəridən, oturacaqın mərkəzi hissəsindən umbon və ya omfal (ομφαλός) şəkildə yuxarıya doğru qabarıqdır. Oturacağın qalan hissəsi ensizdir. Qab yuxarıya qalxan nazik divarlı gövdə ilə tamamlanır. Gövdənin yuxarısı bir qədər içəriyə meyillidir. Camlar çox zaman qara boyalı və təsvirli hazırlanırdı. Gil cam-piyalələr metaldan olan nümunələrin oxşarı kimi meydana gəlmişdi (6, səh. 49-50). Eyni ilə Əhəməni camlarında olduğu kimi barmağı oturacaqdakı umbona yerləşdirməklə qabı rahat tutmaq mümkündür. Digər tərəfdən eyni vaxtda baş barmaq ilə hündür olmayan qabın ağzının kənarından tutaraq camın əldən aşması riskini minimuma endirmək olur. Azərbaycanda aşkar edilən Əhəməni camları yunan oxşarlarından rəngi və üzərindəki təsvirləri ilə fərqlənirlər. Quruluş etibarı ilə demək olar ki, eyni formaya malikdirlər.

Cam tipli qablar Azərbaycana yaxın olan müxtəlif xalqların maddi mədəniyyətində də təmsil olunur. E. ə. VII-VI-əsrlər Midiya dövlətinin ərazisində yaşayan əhali də buna bənzər keramika nümunələri hazırlayırdılar. Persopolun divar rəsmlərində Əhəməni şahənşahlarına hədiyyələr aparan 23 müxtəlif xalqın – mədəniyyətin təsviri öz əksini tapmışdır. Biz burada əlində Əhəməni camına bənzər qablar tutmuş Parfiya, Baktriya, Babil, Lidiya, ari, araxos və digərlərinin təsvirlərini görə bilərik (3. Səh. 37, 67). Bu faktlar heç də təsadüfi xarakter daşımır. Qayaüstü rəsmlər e.ə. VI-IV əsrlərdə mövcud olmuş Əhəmənilər imperiyasının tərkibindəki ayrı-ayrı satraplıqlarda yaşayan müxtəlif xalqların özünəməxsusluğuna dair məlumatları bizə ötürür. Bu xalqların nümayəndələri tərəfindən gətirilən bəxşişlər, bilavasitə həmin xalqın və ya artıq Əhəmənilər imperiyasının satraplığına daxil olan müxtəlif ölkələrin əhalisinin məşğuliyyəti və maddi mədəniyyətinə (geyim, istehsal sahələri və təsərrüfat həyatı) aid dəyərli məlumatlar verir. Təsvirlərdən belə qənaətə gəlmək olar ki, bu dövrdə Əhəməni tipli camlar müxtəlif xalqların məişətində və təsərrüfatında mühüm yer tutmuşdur. Əks təqdirdə şahənşaha hədiyyə qismində aparılan bəxşişlər içərisində camlar çoxluğu ilə təmsil olunmazdı. Bu arqumentdən çıxış edərək qeyd etmək olar ki, bu tip qabların metal, yaxud saxsı variantı antik dövrdə Azərbaycanda da yüksək səviyyədə istehsal edilmişdir. Buna bənzər analoji nümunələrin istehsal tarixi daha erkən dövrlərə təsadüf edir. Ümumiyyətlə camlar arxeoloji tapıntılar kimi tunc dövründən məlumdur. Lakin müxtəlif dövrlərə aid arxeoloji qazıntılardan tapılan camların ölçüsü və formaları fərqlidir. Əhəmənilər dövründə cam tipli qabların daha mükəmməl və təkmil nümunələrinə rast gəlmək mümkündür. Persopolda tapılan bir nümunə hətta zomorf üslubda hazırlanmışdır. Üç ayaq üzərində dayanan camı əyani misal göstərmək olar (15, səh. 73). Camın əsas gövdə hissəsi Azərbaycanda, eləcə də Əhəmənilər imperiyasının hüdudlarına daxil olan müxtəlif xalqların maddi mədəniyyətində rast gəlinən nümunələrlə tamamilə oxşardır. Fərq yalnız bu camın ayaqlarının olmasıdır. Qabın ayaqlarının sonluğu zoomorf şəkildə - it pəncəsi formasında hazırlanmışdır. Qabın üst – cam hissəsi Azərbaycanda tapılan eyni tip nümunələrlə səciyyəvi xüsusiyyətlərə malikdir. Əhəməni camlarının zoomorf şəkildə hazırlanmış nümunələri Azərbaycanın arxeoloji abidələrindən məlum deyil.

Göründüyü kimi Azərbaycanda tapılan Əhəməni tipli saxsı camların böyük qismi dünyada rast gəlinən analoji nümunələrlə oxşar və eyni formaya malikdirlər. Qablar divarının qalınlığı, ölçüsü və rəngi ilə bir-birilərindən qismən fərqlənirlər. Mədəni, siyasi və iqtisadi münasibətlərin qarşılıqlı təsiri nəticəsində Əhəməni mədəniyyətinin təsiri ilə müxtəlif sahələrdə, o cümlədən Azərbaycanın antik dövr keramikasında Əhəməni tipli zərif və nadir nümunələr meydana gəlmişdir.

## Ədəbiyyat:

1. Babayev İ., Mustafayev L., Alışov N., Hüseynov S. 2013-cü ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların hesabatı // Qəbələ arxeoloji ekspedisiyası: Hesabatlar, tapıntılar 2013, Bakı, 2015, s.22-27.
2. Babayev İ.A., Nəcəfova İ., Mustafayev L.X., Alışov N.Ə., Hüseynov S.A. Qəbələ arxeoloji ekspedisiyası Antik Qəbələ dəstəsinin tədqiqat işləri haqqında (Qəbələ rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar 2013-2014, Bakı, 2015, s. 407-409.
3. Heidemarie Kokh, Persepolis and its surroundings. Photographs by Nader Daii, Yassovoli publications,Tehran 2006, 2010, 195 p.
4. Агамалиева С.М. Гончарство Азербайджана (Историко этнографическое исследование). Баку, 1987, 134 с.
5. Бабаев И. (Азербайджан), Гагошидзе Ю. (Грузия), Кнаусс Ф. (Германия). Некоторые итоги и перспективы раскопок дворцовых зданий середины I тысячелетия до н.э. в Гараджамирли (Азербайджан). Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı/ Beynəlxalq elmi konfransın materialları. S. 110-121.
6. Блаватский В.Д., История античной расписной керамики. Москва, 1953, 304 с.
7. Геродот. История в девяти томах. Перевод Г.А.Стратановского. Научно издательский центр «Ладомир», М.: 1999, 752 с.
8. Гусейнова М. Из истории Южного Кавказа Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.) Баку, «Bizim kitab», 2011, 200 с.
9. Ксенофонт. Киропедия. Изд. «Наука» Москва, 1976, 332 с.
10. Ксенофонт. Анабасис. Греческая история. Переводы М. И. Максимовой, С.Я. Лурье, С. И. Соболевского. - М.: АСТ: Астрель, 2011. ISBN 978-5-17-073863-2; ISBN 978-5-271-36347-4, 638 с.
11. Минкевич-Мустафаева Н.В. Об археологических находках из сел. Доланлар // МКА, Т. 1, Баку, 1949, с. 50-70.
12. Нариманов И.Г. Находки баз колоны V – IV вв. до н.э. в Азербайджане // СА, 1960, № 4, 162-164.
13. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. Москва, «Наука», 1977, 184 с.
14. Сергеев В.С. История древней Греции. М.: Издательство Восточной Литературы, 1963, 524 с.
15. Уилбер Д. Персеполь. Археологические раскопки резиденции персидских царей, Издательство «Наука» Москва, 1977, 102 с.

## Summary

# Intercultural influences observed in ceramics production in Azerbaijan (middle of the 1st millennium BC)

**Lachin Mustafayev**

Azerbaijan was subordinated to the Achaemenid empire in VI-IV centuries BC. The fact that Azerbaijan was included in to the administrative administration of Achaemenid empire confirms with the remains of achaemenid type palace found in archeological excavations in the village of Garajamirli in Shamkir region and ancient sources. Azerbaijan's relations with the Achaemenid affected several areas of our material culture, architecture and construction techniques, as well as the production of ceramics. As the result of this influence clay jugs was appeared in ceramics production of Azerbaijan in this period. The influence on the production of ceramics also manifests itself after the collapse of Achaemenid empire- in Hellenistic period too. Production of achaemenid type clay jugs lasted several centuries. There are also analogical examples in the grave of the ancient monument of the city of Gabala. Along with azerbaijanis and achaemenids such vessels were used in the household of many peoples, including Greeks. However, with the influence of potters' intervention the appearance and structure of achaemenid jugs has changed their initial shape. The article deals with, comparative and analytical analyzes.

**Key words:** Ancient world culture, ceramics, clay jug of achaemenid style, cultural influence

## Резюме

# Межкультурные влияния в производстве керамики в Азербайджане (середина I тыс. до н.э.)

**Лачын Мустафаев**

Азербайджан был подчинен Ахеменидской империи в VI-IV веках до нашей эры. Тот факт, что Азербайджан был включен в административное управление Ахеменидской империи, подтверждает остатки дворца ахеменидского типа, найденного в археологических раскопках в селе Гараджамирли в Шамкирском районе и древних источниках. Отношения Азербайджана с Ахеменидом затронули несколько областей нашей материальной культуры, архитектуры и строительных технологий, а также производство керамики. В результате этого влияния в этот период в производстве керамики в Азербайджане появились глиняные чаши. Влияние на производство керамики также проявляется после распада Ахеменидской империи – в эллинистический период. Производство глиняных чаш ахеменидского типа продолжалось несколько столетий. Есть также аналогичные примеры в могиле древнего памятника города Габала. Такие чаши использовались в быту многих народов, включая греков. Однако, с влиянием вмешательства гончаров на внешний вид и структуру чаша Ахеменидов, изменилась. В статье рассматривается сравнительный и аналитический анализ.

**Ключевые слова:** Культура древнего мира, керамика, глиняная чаша ахеменидского типа, культурное влияние



Şəkil 1.




Şəkil 2.




Şəkil 3.




Şəkil 4.




Şəkil 5